| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | TURK 314 Türk Dünyası Mədəniyyəti, 3 kredit, 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Dos., fil.ü.e.d. Elmira Məmmədova-Kekeç | |
| | **E-mail:** | elmira.mammadova@khazar.org | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Konsultasiya vaxtı** | Çərşənbə, 12:00-13:00 | |
| **Prerekvizitlər** | Yoxdur | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Dərsliklər:**<br>• Aslan, Vaqif (2019), Türk xalqları ədəbiyyatı üzrə mühazirələr, Bakı.<br>• Qəfəsoğlu, İbrahim (2017) Türk Milli kültürü, (Tərcümə edən Ramiz Əsgər), Bakı.<br>• Ögel, Bahaeddin (2003), Türk Kültür Tarixi, Ankara.<br>• Nüsrətoğlu, Telman, Nəcəf N., Əkbər (2024). Türk dövlətləri və mədəniyyətləri tarixi. Bakı, Çapar.<br>**İnternet resursları:**<br>https://islamansiklopedisi.org.tr/<br>https://www.turksoy.org<br>https://www.tika.gov.tr/en<br>https://www.otuken.com.tr/u/otuken/docs/t/u/turk-milli-kulturu-1632300825.pdf<br>https://ekitap.ktb.gov.tr/ | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | İnteraktiv | + | |
| | Sual-cavab | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | 15.11.2025-ci il | 30 |
| | Fəallıq | | 5 |
| | Tapşırıq 1 | 13 dekabr 2025-ci il | 10 (5+5) |
| | Tapşırıq 2 | 20 dekabr 2025-ci il | 10 (5+5) |
| | Final imtahanı | | 40 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | “Türk dünyası mədəniyyəti” fənni Türk dünyasının tarixini, dövlətçilik ənənəsini, qədim yazılı və şifahi abidələrini, əxlaqi anlayışını, sosial həyatını, adət-ənənələrini, yazı mədəniyyətini və s. kimi mövzuları əhatə edir. Bu kursda mədəniyyətlərin ortaya çıxması, mədəniyyət nəzəriyyələri və türk mədəniyyəti haqqındakı görüşlər izah ediləcəkdir. İslamiyyətdən əvvəlki türk dövlətləri, onların yayıldığı ərazilər, bu ərazilərdə intişar edən Türk mədəniyyətinin xüsusiyyətləri və burada ortaya qoyduqları sənət nümunələri haqqında məlumatlar izah ediləcəkdir. Müasir Türk xalqlarının həyatında əhəmiyyətli rol oynayan qədim türklərin dövlətçilik ənənələri, yazı mədəniyyətləri, şifahi xalq yaradıcılıqları, həmçinin türk xalqlarının aydınlanmasında müstəsna yerləri olan böyük türk şəxsiyyətlərinin həyat və yaradıcılıqları müqayisəli şəkildə şərh olunacaqdır. | | |
| **Kursun məqsədləri** | Bu kursu tamamlayan tələbələr: dünya coğrafiyasının böyük bir ərazisində yaşayan Türk xalqlarının mədəniyyəti, tarixi, dili, dini, ortaq adət-ənənələri haqqında məlumat sahibi olacaqlar. Türk xalqlarının müştərək yaşadıqları dövrdə yaratdıqları maddi-mədəni zənginliklər (dil, əlifba, şifahi | | |

| | | | |
|---|---|---|---|
| | | və yazılı ədəbiyyat, mədəniyyət nümunələri) haqqında məlumat əldə edəcəklər. Eyni zamanda yaşadıqları ərazilər, həmçinin köç etdikləri ərazilər, inanc sistemləri, sosial sistemləri haqqında fikir sahibi olacaqlar. Türk mədəniyyətinin digər mədəniyyətlər arasındakı yerini təsbit edərək təsir dairəsini öyrənəcəklərdir. | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | | Kursun sonunda tələbələr aşağıdakı bilik və bacarıqları əldə edəcəklər:<br><br>Mədəniyyətlərin ortaya çıxması haqqında nəzəriyyələrlə tanış olacaq və türk mədəniyyətinin xüsusiyyətlərini izah edə biləcəklər;<br><br>Türk mədəniyyətini əmələ gətirən istiqamətləri müəyyənləşdirə biləcəklər;<br><br>Tarixi məlumatları, qədim dövlətləri öyrənəcəklər; qədim türk dövlətlərinin coğrafi əraziləri ilə tanış ola biləcək və bu dövlətlərin qurulma və süqut etmə səbəblərini izah edə biləcəklər;<br><br>Türklərin dili, dini inancları, adət-ənənələri haqqında məlumat sahibi olacaq, qonşu xalqların həyat tərzləri ilə müqayisə edə biləcəklər;<br><br>Türk yaşayışı, sosial quruluşu haqqında fikir sahibi olaraq müasir dövrdəki şərtlər baxımından şərh edə biləcəklər;<br><br>Qədim yazı, yazılı abidələr, dastanlar haqqında fikir sahibi olacaqlar;<br><br>Ümumtürk mədəniyyəti kontekstində Azərbaycan mədəniyyətinin əsaslarını təsbit etmə bacarığına yiyələnəcəklər. | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | | **Fəallıq**: Tələbənin müzakirələrdə iştirakı nəzərə alınır. Həftə ərzində tələbənin dərsdəki fəallığı (1. verilən materiala hazırlıqlı gəlməsi; 2. sual-cavabda iştirakı; 3. Mövzu ilə əlaqəli sualların verilməsi; 4. analiz etmə bacarığını göstərmə meyarı) əsasında qiymətləndirmə aparılacaqdır. Mövzularla əlaqəli verilən fərdi və ya qrup çalışmaları da fəallıq balına daxildir.<br><br>**Tapşırıq 1:** Əsas mövzulara dair verilən tapşırıqlar əsasında materiallar hazırlanacaqdır. Konkret bir türk xalqının mədəniyyətini tanıdan videotəqdimat hazırlanacaqdır. **Videotəqdimat** hazırlanan zaman plagiata yol verilməməli, 10-15 dəqiqə müddətində olmalı, araşdırma mövzusu olan türk xalqının mədəniyyəti ilə bağlı elmi qaynaq və mənbələrə istinad olunmalıdır. Qiymətləndirmədə ilk beş bal mənbələrin fərdi şəkildə toplanılması, ikinci beş bal isə videotəqdimatın keyfiyyətinə (görüntü, səs effekti, materialların paralel şəkildə təqdimi və s.) görə veriləcəkdir.<br><br>**Tapşırıq 2:** Tələbələr 3-4 nəfərdən ibarət qruplar şəklində türk mədəniyyətini tanıdacaq layihələr hazırlayacaqlar. Layihələrdə əyani vəsaitlərin hazırlanması ilə yanaşı, mədəniyyətlə bağlı mövzunun akademik təqdimi də tələb ediləcəkdir. Qiymətləndirmədə ilk beş bal mənbələrin fərdi şəkildə toplanılması, ikinci beş bal isə təqdimata görə veriləcəkdir.<br><br>**Davamiyyət:** Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. **Üzrsüz buraxılan 1 dərs üçün 1 (bir) bal çıxılacaqdır.**<br><br>**İmtahan haqqında**<br><br>Aralıq (30 bal) və Final (40 bal) imtahanları açıq və qapalı sual formasında keçiriləcəkdir. | |
| | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |

| | | | |
|---|---|---|---|
| 1 | 20.09.2025<br>20.09.2025 | Kültür və mədəniyyət anlayışları. “Təkamül”, “Yayılma” nəzəriyyələri | Qəfəsoğlu, 18-26 |
| 2 | 27.09.2025<br>27.09.2025 | Mədəniyyətin ortaya çıxma səbəbləri. Köçərilik məsələsi | Qəfəsoğlu, 29-41 |
| 3 | 04.10.2025<br>04.10.2025 | Türk adı. Türklərin Ana yurdu<br>Türklərin yayılmaları. | Qəfəsoğlu,46https://www.youtube.com/watch?v=gPWBu2xUYeg |
| 4 | 11.10.2025<br>11.10.2025 | Türk dövlətləri. İlk türk dövlətləri. Yayıldıqları ərazilər.<br>Göytürklər, Uyğurlar. Qırğız xaqanlığı | Qəfəsoğlu, 100-147.<br>Mühazirələrim |
| 5 | 18.10.2025<br>18.10.2025 | Ön Asiya Türk dövlətləri. Xəzər xaqanlığı.<br>Bulqar dövlətləri | Qəfəsoğlu, 176-219 |
| 6 | 25. 10.2025<br>25.10.2025 | Bozqır Türk mədəniyyəti.<br>Bozqır mədəniyyətinin təşəkkülü. | Qəfəsoğlu, 223-239 |
| 7 | 01.11.2025<br>01.11.2025 | Qədim türklərdə sosial quruluş.<br>Ailə. Ailə birliyi. Boy, boylar birliyi. | Qəfəsoğlu, 240-264 |
| 8 | 08.11.2025<br>08.11.2025 | Dövlət. Türklərdə cahan hakimiyyəti məfkurəsi.<br>Türk dövlətində təşkilat | Qəfəsoğlu, 265-303 |
| 9 | 15.11.2025<br>15.11.2025 | **Aralıq imtahanı**<br>Türklərdə ordu. Bozqır Türk dövlətinin quruluşu. | Qəfəsoğlu, 304-321 |
| 10 | 22.11.2025<br>22.11.2025 | Qədim türk inancı. Şamanlıq məsələsi.<br>Göy Tanrı dini | Qəfəsoğlu, 322-345 |
| 11 | 29.11.2025<br>29.11.2025 | Türklərin ədəbiyyatı: dastanlar və əfsanələr. “Alp Ər Tonqa”, “Şu” dastanı. “Oğuz Kağan” dastanı<br>İslamiyyət sonrası türk dastanları. | Qəfəsoğlu, 360-366<br>Aslan, 63-78 |
| 12 | 06.12.2025<br>06.12.2025 | Türklərdə iqtisadi həyat<br>Türklərdə yazı, incəsənət, musiqi | Qəfəsoğlu, 346-359<br>Qəfəsoğlu, 360-375 |
| 13 | 13.12.2025<br>13.12.2025 | Türklərin dili. İslamiyyətdən sonra türklərin kültür və ədəbiyyatı (“Qutatgu-bilik”, “Divan ü lüğət-it-türk”) | Mühazirələrim<br>Aslan, 151-184 |
| 14 | 20.12.2025<br>20.12.2025 | Türk böyükləri: Şəhabəddin Mərcani, İsmayıl bəy Qaspıralı, Əli Bəy Hüseynzadə və d. | https://islamansiklopedisi.org.tr/<br>Mühazirələrim<br>https://www.turksoy.org/<br>https://www.tika.gov.tr/en |

| | | | |
|---|---|---|---|
| 15 | 27.12.2025<br>27.12.2025 | Türk təşkilatları (TİKA, TÜRKSOY) | |
| | | Final imtahanı | . |